# من خلقني؟ ولماذا؟

# Məni kim və nə üçün yaratdı?

# Məni kim və nə üçün yaratdı?

## Hər bir şey Yaradanın varlığına dəlalət edir.

Göyləri, yeri və onların arasında olan saysız-hesabsız, əzəmətli məxluqatları kim yaradıb?

Göydə və yerdə bu dəqiq və mükəmməl nizamı kim qurmuşdur?

İnsanı yaradan, ona eşitmə, görmə və ağıl bəxş edən, ona elm əldə etmək və həqiqətləri dərk etmək qabiliyyətini verən kimdir?

Sənin və canlı varlıqların bədənindəki bu dəqiq quruluşu necə izah edirsən? Onları kim yaratmışdır?

Bu əzəmətli kainat onu illər boyu dəqiq tənzimləyən qanunlarla necə nizamlanmış və sabit qalmışdır?

Bu aləmə hökm edən nizamı (həyatı, ölümü, canlıların çoxalmasını, gecəni və gündüzü, mövsümlərin dəyişməsini və s.) kim qoymuşdur?

Bu kainat özü özünü yaradıbmı? Yoxsa heç nədən yaranıb? Yoxsa təsadüfən meydana gəlib?

Nə üçün insan görmədiyi (məsələn: dərk etmək, ağıl, ruh, hisslər, məhəbbət və s. bu kimi) şeylərin mövcudluğuna inanır? Məgər bu, onların izlərini gördüyü üçün deyilmi? Belə olan təqdirdə, insan bu əzəmətli kainatın Xaliqinin mövcudluğunu, Onun məxluqlarının izlərini, onları  gözəl bir biçimdə yaratmasının və mərhəmətinin izlərini açıq-aydın gördüyü halda, necə inkar edir?

Heç kəs ona: "Bu ev, bir kimsə tərəfindən tikilmədən meydana gəlmişdir" yaxud: "Bu evi, yoxluq yaratmışdır" – deyilməsini qəbul etməz! Elə isə bəzi insanlar: "Bu əzəmətli kainat, Yaradan olmadan meydana gəlmişdir" – deyən kəsi necə təsdiqləyir? Ağıllı bir insan ona: "Kainatın bu dəqiq nizam-intizamı təsadüf nəticəsində meydana gəlmişdir" – söylənilməsini necə qəbul edə bilər?

Uca Allah buyurur:

(أَمۡ خُلِقُواْ مِنۡ غَيۡرِ شَيۡءٍ أَمۡ هُمُ ٱلۡخَٰلِقُونَ، أَمۡ خَلَقُواْ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۚ بَل لَّا يُوقِنُونَ).

(Yoxsa onlar heç bir şey olmadan (Xaliqsizmi) yaranıblar? Yaxud onlar (öz-özlərini) yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar). [Tur: 35, 36].

## Pak və Uca olan Allah

Bir Rəbb və bir Xaliq var ki, Onun kamilliyinə dəlalət edən çoxlu və əzəmətli adları və sifətləri vardır. Onun adlarından bəziləri bunlardır: Xaliq, Rahim, Razzəq, Kərim və Allah. Allah adı, Uca Rəbbin ən məşhur adı olub, mənası ibadətə tək layiq olan və heç bir şəriki olmayan deməkdir.

Uca Allah Qurani-Kərimdə buyurur:

﴿قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ * ٱللَّهُ ٱلصَّمَدُ *لَمۡ يَلِدۡ وَلَمۡ يُولَدۡ *وَلَمۡ يَكُن لَّهُۥ كُفُوًا أَحَدُۢ﴾

(De: “O Allah Təkdir!
Allah Möhtac deyildir.
O, nə doğub, nə doğulub,

Onun bənzəri də yoxdur). [İxlas: 1-4].

Uca Allah buyurur:

﴿اللَّهُ لا إِلَهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ لا تَأْخُذُهُ سِنَةٌ وَلا نَوْمٌ لَهُ مَا فِي السَّمَوَاتِ وَمَا فِي الأَرْضِ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلا يُحِيطُونَ بِشَيْءٍ مِنْ عِلْمِهِ إِلَّا بِمَا شَاءَ وَسِعَ كُرْسِيُّهُ السَّمَوَاتِ وَالأَرْضَ وَلا يَئُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ﴾

Allah, Ondan başqa haqq ilah yoxdur, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Əzəmətlidir. [Bəqərə: 255].

## Pak və Uca olan Rəbbin sifətləri

Rəbb yer üzünü yaradıb, onu məxluqatına tabe etdirib, yararlı hala gətirəndir. Göyləri və onların arasındakı əzəmətli məxluqatları yaradan, əzəmətinə dəlalət edən, günəş, ay, gecə və gündüz üçün bu dəqiq nizamı qoyan da Odur.

Həyatımız üçün vacib olan havanı bizə ram edən məhz Rəbbdir. Göydən yağış endirən, dənizləri və çayları bizə tabe etdirən də Odur. Analarımızın bətnində heç bir gücümüz yox ikən bizi qidalandıran da Odur. Doğulduğumuz gündən

ölənə qədər damarlarımızdakı qanı axıdan və dayanmadan qəlbimizi döyündürən də Odur.

Uca Allah buyurur:

﴿وَاللَّهُ أَخْرَجَكُمْ مِنْ بُطُونِ أُمَّهَاتِكُمْ لَا تَعْلَمُونَ شَيْئًا وَجَعَلَ لَكُمُ السَّمْعَ وَالْأَبْصَارَ وَالْأَفْئِدَةَ لَعَلَّكُمْ تَشْكُرُونَ﴾

(Allah sizi analarınızın bət--nindən heç nə anlamadığı-nız bir halda çıxart-dı, sizə qu-laq, göz və ürək verdi ki, bəl-kə şükür edəsiniz). [Nəhl: 78].

## İbadət olunan Rəbb kamil sifətlər ilə vəsf olunmalıdır.

Yaradanımız bizə Onun əzəmətini dərk edən ağıllar bəxş etmiş, nəfsimizdə Onun kamilliyinə və heç bir nöqsanla vəsf oluna bilməyəcəyinə dəlalət edən fitrət yerləşdirmişdir.

İbadət yalnız tək olan Uca Allaha olmalıdır, çünki O, kamil və ibadətə layiq olandır. Ondan başqa ibadət edilən hər bir şey batildir, naqisdir, ölümə və məhvə məhkumdur.

İbadət edilən ilahın: insan, büt, ağac və ya heyvan olması mümkün deyildir!

Ağıllı insana kamil olmayana ibadət etməsi yaraşmaz, elə isə özündən aşağı olan məxluqa necə ibadət edə bilər!

Rəbb, ana bətnində döl olub, adi uşaqlar kimi doğula bilməz.

Rəbb, məxluqatı yaradandır. Məxluqat Onun əlində və hökmü altındadır. İnsanların ona zərər

verməsi, onu çarmıxa çəkməsi, işgəncə verməsi və ya alçatması mümkün deyil!

Rəbbin ölməsi mümkün deyildir.

Rəbb, unutmayan, yatmayan, yemək yeməyəndir. O, əzəmətlidir. Onun zövcəsi və övladının olması mümkün deyil. Xaliq, əzəmətli sifətlərə malikdir. O, heç vaxt ehtiyac və ya naqislik sifətləri ilə vəsf oluna bilməz. Xaliqin əzəmətinə zidd olan və peyğəmbərlərə nisbət edilən bütün mətnlər, təhrif edilmiş mətnlərdir və Musanın, İsanın və digər peyğəmbərlərin ( Allahın salavatı və salamı onların üzərinə olsun) gətirdikləri səhih vəhydən deyildir.

Uca Allah buyurmuşdur:

يَا أَيُّهَا النَّاسُ ضُرِبَ مَثَلٌ فَاسْتَمِعُوا لَهُ إِنَّ الَّذِينَ تَدْعُونَ مِنْ دُونِ اللَّهِ لَنْ يَخْلُقُوا ذُبَابًا وَلَوِ اجْتَمَعُوا لَهُ وَإِنْ يَسْلُبْهُمُ الذُّبَابُ شَيْئًا لَا يَسْتَنْقِذُوهُ مِنْهُ ضَعُفَ الطَّالِبُ وَالْمَطْلُوبُ (73) مَا قَدَرُوا اللَّهَ حَقَّ قَدْرِهِ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ (74)

(Ey insanlar! Sizə bir mə-səl çəki-lir. Onu dinləyin. Şüb-həsiz ki, Allah-dan başqa iba-dət etdikləriniz bir mil-çək belə yarada bil-məz-lər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər mil-çək on-lar-dan bir şey götürüb aparsa, bunu on-dan geri ala bilməzlər. İs-tə-yən də aciz qalar, istənilən də!)

(Onlar Allahı lazımınca qiymət-lən-dirmədilər. Şübhəsiz ki, Allah Qüv-vətlidir, Qüdrət-lidir!). [Həcc: 73, 74].

## Yaradanın bizi vəhysiz tərk etməsi ağlabatandırmı?

Uca Allahın bu məxluqatları heç bir məqsədsiz yaratması ağlabatandırmı? Yoxsa Uca Allah, hikmət və elm sahibi olduğu halda bunları əbəs yerə yaratmışdır?

Bizləri belə bir dəqiqliklə və kamilliklə yaradan, göylərdə və yerdə olan şeyləri bizə ram edən bir Xaliqin bizi məqsədsiz yaratması və ya bizi düşündürən ən əhəmiyyətli sualların, məsən: Biz nə üçün buradayıq? Ölümdən sonra nə olacaq? Bizim yaradılışımızın məqsədi nədir? cavabı verilmədən başlı-başına buraxması ağlabatandırmı?

Əksinə, Uca Allah bizə, varlığımızın məqsədini və bizdən nə istədiyini bilməyimiz üçün elçilər göndərdi!

Uca Allah bizə ibadəti yalnız Özünün haqq etdiyini bildirmək, Ona necə ibadət edəcəyimizi bilmək, Onun əmr və qadağalarını bizə çatdırmaq və bizə, ali dəyərlərə bağlı qaldığımız təqdirdə həyatımızın xeyir və bərəkətlə dolu, gözəl olacağını xəbər verməkləri üçün elçilər göndərmişdir.

Artıq uca Allah: Nuh, İbrahim, Musa və İsa kimi bir çox elçilər göndərmiş və bu elçilərə, onların sadiqliyinə və Yaradan tərəfindən göndərildiyinə dəlalət edən ayətlər və möcüzələr bəxş etmişdir.

Elçilərin sonuncusu Muhəmməddir (Allahın salavatı və salamı onun üzərinə olsun) və Allah ona Qurani-Kərimi nazil etmişdir.

Bu Rəsullar bizə bu həyatın bir imtahan olduğunu və həqiqi həyatın isə ölümdən sonra olacağını açıq-aşkar şəkildə xəbər vermişlər.

Həmçinin bu Rəsullar bizə, tək və heç bir şəriki olmayan Uca Allaha ibadət edən və bütün rəsullara iman gətirən möminlər üçün Cənnət olacağını və Uca Allah ilə yanaşı başqa ilahlara ibadət edən və ya Onun göndərdiyi rəsullardan hər hansı birini inkar edən kafirlər üçün isə Uca Allahın Cəhənnəm odu hazırladığını xəbər vermişlər.

Uca Allah buyurur:

يَابَنِي آدَمَ إِمَّا يَأْتِيَنَّكُمْ رُسُلٌ مِنْكُمْ يَقُصُّونَ عَلَيْكُمْ آيَاتِي فَمَنِ اتَّقَى وَأَصْلَحَ فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ (35) وَالَّذِينَ كَذَّبُوا بِآيَاتِنَا وَاسْتَكْبَرُوا عَنْهَا أُولَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ (36)

(Ey Adəm oğulları! Sizə aranızdan elçilər gəlib ayələrimi bəyan edərkən (Məndən) qorxub öz əməllərini islah edən kimsələrin (Qiyamət günü) heç bir qorxusu olmaz və onlar kədərlənməyəcəklər).

(Ayələrimizi yalan sayıb, təkəbbürlüklə onlardan üz çevirənlər isə Cəhənnəm sakinləridirlər. Onlar orada əbədi qalacaqlar).

[Əraf: 35, 36].

Pak və Uca olan Allah buyurur:

﴿ أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ ﴾

(Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz (heç vaxt) Bizə qaytarılmayacaqsınız?). [Muminun: 115].

## Qurani Kərim

Quran Kərim, Uca Allahın sonuncu peyğəmbər Muhəmmədə (Allahın salavatı və salamı onun üzərinə olsun) nazil etdiyi kəlamıdır. Bu, Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) peyğəmbərliyinin doğruluğunu sübut edən ən böyük möcüzədir. Quran öz hökmlərində haqq, xəbərlərində isə doğrudur. Uca Allah, onu yalan sayanları bu Qurana bənzər, hətta bir surə olsa belə gətirməyə çağırmışdır, lakin onlar Quranın gözəl üslubu və mükəmməl sözləri qarşısında bundan aciz qaldılar. Qurani-Kərim, bir çox əqli dəlilləri və elmi həqiqətləri özündə ehtiva edir ki, bu da onun insan əməli ola bilməyəcəyini, əksinə, insanların Rəbbi olan Uca və Pak Allahın sözü olduğunu göstərir.

## Nə üçün Rəsullar çox olub?

Uca Allah, ilkin zamandan etibarən insanları Rəblərinə dəvət etmələri və Onun əmrlərini və qadağalarını çatdırmaları üçün elçilər göndərmişdir. Onların hər birinin dəvəti: Tək Allaha ibadət etmək olmuşdur. Hər dəfə bir ümmət, öz peyğəmbərinin gətirdiyi Allahın tövhidini tərk etməyə və ya onu təhrif etməyə başladıqda, Allah başqa bir peyğəmbər göndərirdi ki, bu təhrifləri

düzəltsin və insanları təkrar olaraq Allahın tövhidinə, Ona itaət etməyə yönəltməklə onları sağlam fitrətə qaytarsın. Bu proses, Uca Allah, peyğəmbərlərin sonuncusu olan Muhəmmədi, sallallahu aleyhi va səlləm, göndərənə qədər davam etdi. Nəhayət o, bütün insanlar üçün Qiyamətə qədər keçərli olan, əvvəlki şəriətləri tamamlayan və onları ləğv edən əbədi və ümumi bir şəriət gətirdi və Uca Allah, bu şəriətin və risalətin Qiyamətə qədər qalmasını, davam etməsini və qorunmasını öz üzərinə götürdü.

Buna görə də biz müsəlmanlar – Allahın əmr etdiyi kimi – bütün əvvəlki peyğəmbərlərə və kitablara iman edirik.

Uca Allah buyurur:

﴿ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيۡهِ مِن رَّبِّهِۦ وَٱلۡمُؤۡمِنُونَۚ كُلٌّ ءَامَنَ بِٱللَّهِ وَمَلَٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ لَا نُفَرِّقُ بَيۡنَ أَحَدٖ مِّن رُّسُلِهِۦۚ وَقَالُواْ سَمِعۡنَا وَأَطَعۡنَاۖ غُفۡرَانَكَ رَبَّنَا وَإِلَيۡكَ ٱلۡمَصِيرُ﴾ [2: 285].

"Allahın rəsulu öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də, (iman gətirdilər). Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. (Onlar dedilər): "Biz Onun elçiləri arasında fərq qoymuruq!" (Həmçinin,) dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş yalnız Sənədir!".

[Bəqərə 2 surəsi, ayə 285].

## **Bir şəxs, göndərilən bütün rəsullara iman etmədikcə, mömin sayılmaz.**

Rəsulları göndərən Allahdır. Kim hər hansı bir rəsulu inkar edərsə, artıq bütün rəsulları inkar etmiş olar. İnsanın Allahın nazil etdiyi vəhyi rədd etməsindən daha böyük bir günah yoxdur. Cənnətə daxil olmaq üçün bütün rəsullara iman etmək lazımdır.

Bu dövrdə hər bir insanın üzərinə düşən ən vacib vəzifə, Allahın bütün peyğəmbərlərinə iman etməkdir. Bu isə yalnız peyğəmbərlərin axırıncısı və sonuncusu olan Muhəmmədə, sallallahu aleyhi va səlləm, iman etmək və tabe olmaqla mümkün ola bilər.

Uca Allah Qurani-Kərimdə, göndərdiyi rəsullardan hər hansı birinə iman etməyi inkar edən şəxsin, Allaha küfür etdiyini və Onun vəhyini yalan saydığını bildirmişdir.

Aşağıda qeyd edilən ayəni oxu:

"إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللَّهِ ورُسُلِهِ ويُرِيدُونَ أَنْ يُفَرِّقُوا بَيْنَ اللَّهِ ورُسُلِهِ ويَقُولُونَ
نُؤْمِنُ بِبَعْضٍ ونَكْفُرُ بِبَعْضٍ ويُرِيدُونَ أَنْ يَتَّخِذُوا بَيْنَ ذَلِكَ سَبِيلًا أُولَئِكَ هُمُ
الكافِرُونَ حَقًّا وأَعْتَدْنا لِلْكَفِرِيْنِ عَذابًا مُهِينًا﴾".

"Allaha və Onun elçilərinə küfr edənlər, Allahla elçilərini bir-birindən ayırmaq istəyib: “Biz (o elçilərin) bəzisinə inanır, bəzilərinə isə inanmırıq!” – deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər –

məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq". [Nisa 4 surəsi, ayələr 150-151].

## İslam nədir?

İslam: tövhid ilə Allaha təslim olmaq, itaətlə Ona boyun əymək, Onun şəriətinə razı olaraq və qəbul edərək əməl etməkdir.

Uca Allah bütün rəsulları bir risalət ilə göndərmişdir. Bu risalət: Heç bir şəriki olmayan tək olan Allaha ibadət etməyə dəvət etməkdir.

İslam bütün peyğəmbərlərin dinidir, onların dəvəti bir, şəriətləri isə müxtəlifdir. Bugün müsəlmanlar, bütün peyğəmbərlərin gətirdiyi doğru dinə bağlı olan tək insanlardır. Bu zamanda məhz İslam risaləti haqqdır. İbrahimi, Musanı və İsanı göndərən Rəbb, peyğəmbərlərin sonuncusu olan Məhəmmədi, sallallahu aleyhi va səlləm, göndərən eyni Rəbdir. Və artıq İslam şəriəti, əvvəlki şəriətləri ləğv edən bir şəriət olaraq gəlmişdir.

Bu gün - İslam dinindən başqa - insanların ibadət etdikləri bütün dinlər bəşəriyyət tərəfindən ixtira edilmiş dinlərdir. Yaxud o dinlər, ilahi dinlər olub, sonra isə insan əli ilə xurafatlara, danışılan nağıllara (mifik zibil və miras qalmış əfsanələrin qarışığı/ yığını) və bəşər ictihdalarından ibarət qarışıq bir dinə çevrilmişdir. Amma müsəlmanların əqidəsinə gəldikdə isə bu, dəyişməyən, açıq-aydın

bir əqidədir. Qurani-Kərimə baxın, O bütün müsəlman ölkələrində eyni bir kitabdır.

Uca Allah Qurani-Kərimdə belə buyurur:

قُلْ آمَنَّا بِاللَّهِ وَمَا أُنْزِلَ عَلَيْنَا وَمَا أُنْزِلَ عَلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَاقَ وَيَعْقُوبَ وَالْأَسْبَاطِ وَمَا أُوتِيَ مُوسَى وَعِيسَى وَالنَّبِيُّونَ مِنْ رَبِّهِمْ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِنْهُمْ وَنَحْنُ لَهُ مُسْلِمُونَ (84) وَمَنْ يَبْتَغِ غَيْرَ الْإِسْلَامِ دِينًا فَلَنْ يُقْبَلَ مِنْهُ وَهُوَ فِي الْآخِرَةِ مِنَ الْخَاسِرِينَ (85).

"De: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musaya, İsaya və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik. Biz onların heç biri arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!

Kim İslamdan başqa bir din axtararsa, (bilsin ki) o din ondan heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar".

[Əli İmran 3 surəsi, ayələr 84-85].

## Müsəlmanlar İsa, aleyhi-ssələm, haqqında nə etiqad edir?

Bilirsənmi, Allahın peyğəmbəri İsaya iman gətirmək, onu sevmək, ona hörmət etmək və onun, heç bir şəriki olmayan tək Allaha ibadət etməyə dəvət edən risalətinə inanmaq müsəlmanlara vacibdir?! Müsəlmanlar, İsa və Muhəmməd peyğəmbərin, sallallahu əleyhi va səlləm, hər ikisinin də peyğəmbər olduqlarına, onların, insanları Allah yoluna və Cənnət yoluna yönəltmək üçün göndərildiyinə etiqad edirlər.

Biz İsanın, aleyhi-ssələm, Allah tərəfindən göndərilən ən əzəmətli peyğəmbərlərdən biri olduğuna və həmçinin onun möcüzəvi bir şəkildə doğulduğuna etiqad edirik. Uca Allah bizə Quranda Adəmi atasız və anasız yaratdığı kimi, İsanı da atasız yaratdığını xəbər vermişdir. Çünki Allah hər şeyə qadirdir.

Biz İsanın, aleyhi-ssələm, ilah olmadığına və həmçinin Allahın oğlu olmadığına, çarmıxa (xaça) çəkilmədiyinə, əksinə hələ də diri olduğuna, Allahın onu axır zamanda ədalətli hakim olaraq yerə endirmək üçün öz dərgahına qaldırdığına etiqad edirik. Və o, müsəlmanlarla birlikdə olacaqdır, çünki məhz müsəlmanlar, İsanın və bütün digər peyğəmbərlərin gətirdiyi tövhid inancına iman edənlərdir.

Uca Allah Quranda bizə, nəsranilərin İsanın, aleyhi-ssələm, risalətini təhrif etdiklərini və İncili təhrif edən, dəyişdirən və İsanın demədiyi mətnləri İncilə əlavə edən sapmış və azğın kimsələrin olduğunu xəbər vermişdir. Bunun təsdiqi olaraq, İncilin bir çox fərqli nüsxələrinin olması və onlarda çoxlu ziddiyyətlərin mövcudluğunu göstərmək olar.

Uca Allah bizə, İsanın Rəbbinə ibadət etdiyini və heç kəsdən özünə ibadət etməsini tələb etmədiyini, əksinə, öz qövmünə onları Yaradana ibadət etməklərini əmr etdiyini xəbər vermişdir. Lakin şeytan nəsraniləri İsaya ibadət etməyə

meylləndirdi. Həmçinin Uca Allah Quranda bizə, Allahdan başqasına ibadət edəni bağışlamayacağını, İsanın Qiyamət günü ona ibadət edənləri inkar edəcəyini və onlara: “Mən sizə Yaradana ibadət etməyi əmr etdim. Mən sizdən mənə ibadət etməyi tələb etmədim” – deyəcəyini bildirmişdir. Buna dəlil Uca Allahın bu kəlamıdır:

﴿يَـٰٓأَهۡلَ ٱلۡكِتَـٰبِ لَا تَغۡلُواْ فِى دِينِكُمۡ وَلَا تَقُولُواْ عَلَى ٱللَّهِ إِلَّا ٱلۡحَقَّۚ إِنَّمَا ٱلۡمَسِيحُ عِيسَى ٱبۡنُ مَرۡيَمَ رَسُولُ ٱللَّهِ وَكَلِمَتُهُۥٓ أَلۡقَىٰهَآ إِلَىٰ مَرۡيَمَ وَرُوحٌ مِّنۡهُۖ فَـَٔامِنُواْ بِٱللَّهِ وَرُسُلِهِۦۖ وَلَا تَقُولُواْ ثَلَـٰثَةٌۚ ٱنتَهُواْ خَيۡرًا لَّكُمۡۚ إِنَّمَا ٱللَّهُ إِلَـٰهٌ وَٰحِدٌۖ سُبۡحَـٰنَهُۥٓ أَن يَكُونَ لَهُۥ وَلَدٌۘ لَّهُۥ مَا فِى ٱلسَّمَـٰوَٰتِ وَمَا فِى ٱلۡأَرۡضِۗ وَكَفَىٰ بِٱللَّهِ وَكِيلًا﴾

"Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi (“ol!”) kəlməsi və Onun tərəfindən (göndərilən) bir ruhdur. Allaha və Onun elçilərinə iman gətirin və: “(İlah) üçdür!” deməyin. (Batil əqidənizə) son qoyun! (Bu) sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər".

[Nisa 4 surəsi, ayə 171].

Uca Allah buyurur:

(وَإِذْ قَالَ اللَّهُ يَا عِيسَى ابْنَ مَرْيَمَ أَأَنتَ قُلْتَ لِلنَّاسِ اتَّخِذُونِي وَأُمِّيَ إِلَٰهَيْنِ مِن دُونِ اللَّهِ ۖ قَالَ سُبْحَانَكَ مَا يَكُونُ لِي أَنْ أَقُولَ مَا لَيْسَ لِي بِحَقٍّ ۚ إِن كُنتُ قُلْتُهُ فَقَدْ عَلِمْتَهُ ۚ تَعْلَمُ مَا فِي نَفْسِي وَلَا أَعْلَمُ مَا فِي نَفْسِكَ ۚ إِنَّكَ أَنتَ عَلَّامُ الْغُيُوبِ

"Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahı qoyub məni və anamı iki ilah qəbul edin!” – demişdin?” İsa deyəcək: “Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən!" [Maidə 5 surəsi, ayə 116].

Kim axirətdə nicat tapmaq istəyirsə, İslamı qəbul etməli və Muhəmməd peyğəmbərə, sallallahu aleyhi va səlləm, tabe olmalıdır.

Peyğəmbərlərin və elçilərin, onlara salam olsun, həmfikir olduqları həqiqətlərdən biri də, axirətdə yalnız Uca Allaha iman gətirən, Ona heç bir kəsi şərik qoşmayan, bütün peyğəmbərlərə və elçilərə iman gətirən müsəlmanların nicat tapmasıdır. Musa peyğəmbərin zamanında olub ona iman gətirən və onun dininə tabe olanlar, müsəlmanlar, möminlər və salehlərdir. Lakin Uca Allah İsanı göndərdikdən sonra Musanın davamçılarına, İsaya iman etmələri və ona tabe olmaları vacib oldu. Kimlər İsaya iman gətirmişdirsə, onlar saleh müsəlmanlardır, kim də İsaya iman gətirməkdən imtina edib: "Mən Musanın dinində qalacağam" – demişdirsə, o, mömin deyildir. Çünki o, Allahın göndərdiyi peyğəmbərə iman gətirməkdən imtina etmişdir. Uca Allah elçilərin sonuncusu olan Muhəmmədi, sallallahu aleyhi va səlləm,

peyğəmbər olaraq göndərdikdən sonra bütün insanların ona iman etməsi vacib oldu. Musanı və İsanı peyğəmbər göndərən Rəbb, peyğəmbərlərin sonuncusu olan Muhəmmədi, sallallahu aleyhi va səlləm, də peyğəmbər olaraq göndərən Rəbdir. Kim Muhəmmədin, sallallahu aleyhi va səlləm, dininə iman gətirməkdən imtina edib: "Mən Musaya və ya İsaya tabe olmaqda davam edəcəyəm" – deyərsə, o, mömin deyildir.

Bir şəxsin: "Mən müsəlmanlara hörmət edirəm" – deməsi kifayət deyildir. Onun axirətdə nicat tapması üçün sədəqə verməsi və yoxsullara yardım etməsi kifayət etməz. Əksinə, Uca Allah ondan bu əməlləri qəbul etməsi üçün onun: Allaha, onun kitablarına, elçilərinə və axirət gününə iman etməsi lazımdır. Çünki Allaha şərik qoşmaqdan, Allaha küfr etməkdən, Allahın nazil etdiyi vəhyi inkar etməkdən yaxud peyğəmbərlərin sonuncusu olan Muhəmmədin, sallallahu aleyhi va səlləm, peyğəmbərliyini inkar etməkdən daha böyük günah yoxdur. Allahın elçisi Muhəmmədin, sallallahu aleyhi va səlləm, peyğəmbər olaraq göndərildiyini eşidib ona iman gətirməyən və İslam dininə daxil olmaqdan imtina edən yəhudi və nəsranilər Cəhənnəm odunda daimi və əbədi qalacaqlar. Uca Allah bu barədə belə buyurur:

{إِنَّ الَّذِينَ كَفَرُوا مِنْ أَهْلِ الْكِتَابِ وَالْمُشْرِكِينَ فِي نَارِ جَهَنَّمَ خَالِدِينَ فِيهَا ۚ أُولَـٰئِكَ هُمْ شَرُّ الْبَرِيَّةِ}

"Şübhəsiz ki, Kitab əhlindən və müşriklərdən kafir olanlar, içində əbədi qalacaqları Cəhənnəm odunda olacaqlar. Onlar məxluqatın ən şərliləridirlər".

[Bəyyinə 98 surəsi, ayə 6].

Bəşəriyyətə Uca Allahdan sonuncu risalət nazil olduğu halda, İslam və axırıncı peyğəmbər Muhəmməd barədə, sallallahu aleyhi va səlləm, eşidən hər bir insana ona iman etməsi, onun şəriətinə tabe olması, əmrlərinə va qadağalarına itaət etməsi vacibdir. Elə buna görə də kim bu sonuncu risalət haqqında eşidib, onu rədd edərsə, Uca Allah ondan heç bir şey qəbul etməyəcək və axirətdə ona əzab verəcəkdir. Bunun dəlillərindən biri Uca Allahın bu kəlamıdır:

﴿وَمَن يَبۡتَغِ غَيۡرَ ٱلۡإِسۡلَٰمِ دِينٗا فَلَن يُقۡبَلَ مِنۡهُ وَهُوَ فِي ٱلۡأٓخِرَةِ مِنَ ٱلۡخَٰسِرِينَ﴾

"Kim İslamdan başqa bir din axtararsa, (bilsin ki,) o din ondan heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar".

[Əli İmran 3 surəsi, ayə 85].

Uca Allah buyurur:

(قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْا إِلَىٰ كَلِمَةٍ سَوَاءٍ بَيْنَنَا وَبَيْنَكُمْ أَلَّا نَعْبُدَ إِلَّا اللَّهَ وَلَا نُشْرِكَ بِهِ شَيْئًا وَلَا يَتَّخِذَ بَعْضُنَا بَعْضًا أَرْبَابًا مِّن دُونِ اللَّهِ ۚ فَإِن تَوَلَّوْا فَقُولُوا اشْهَدُوا بِأَنَّا مُسْلِمُونَ)

"De: “Ey Kitab əhli! Bizimlə sizin aranızda olan eyni bir kəlməyə (tərəf) gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi

ilahiləşdirməyək”. Əgər onlar yenə üz çevirsələr, deyin: “Şahid olun ki, biz müsəlmanlarıq!”. [Əli İmran 3 surəsi, ayə 64].

## Müsəlman olmaq üçüm mən nə etməliyəm?

İslama daxil olmaq üçün bu altı əsasa iman etmək vacibdir:

Uca Allaha iman. Uca Allahın: Yaradan, ruzi verən, idarə edən, (hər şeyin) sahibi olduğuna və həmçinin Onun heç bir bənzəri, zövcəsi, övladı olmadığına və yalnız Onun ibadətə layiq olduğuna iman etmək.

Mələklərə iman. Mələklərin Uca Allahın qulları olduğuna, Uca Allahın onları nurdan yaratdığına və Allahın peyğəmbərlərinə vəhyi çatdırmağı onların vəzifələrindən biri etdiyinə iman etmək.

Kitablara iman. Uca Allahın (Tövrat və İncil kimi) peyğəmbərlərinə nazil etdiyi bütün kitablara və onların sonuncusu olan Qurani-Kərimə iman etmək.

Rəsullara iman. Uca Allahın –Nuh, İbrahim, Musa, İsa və onların sonuncusu Muhəmməd kimi – göndərdiyi bütün rəsullara, onların bəşər övladı olduğuna, Allahın onları vəhy ilə dəstəklədiyinə və onlara doğruluqlarına dəlalət edən ayətlər və möcüzələr bəxş etdiyinə iman etmək.

Axirət gününə iman. Uca Allahın əvvəlkiləri və sonrakıları dirildəcəyi, qulları arasında hökm verəcəyi və möminləri Cənnətə, kafirləri isə

Cəhənnəmə daxil edəcəyi günə – axirət gününə iman etmək.

Qədərə iman. Uca Allahın keçmişdə olan və gələcəkdə olacaq hər bir şeyi bildiyinə və Allahın bunları artıq yazdığına, istədiyinə və hər şeyi yaratdığına iman etmək.

## İslam səadət (xoşbəxtlik) yoludur.

İslam bütün peyğəmbərlərin dinidir. Bu din, yalnız ərəblərə məxsus olan bir din deyildir.

İslam bu dünyada həqiqi səadətə, axirətdə isə əbədi nemətə aparan yoldur.

İslam, ruhun və bədənin ehtiyaclarını qarşılamağa və insanların (bəşəriyyətin) bütün problemlərini həll etməyə qadir olan yeganə dindir.

Uca Allah buyurur:

{قَالَ اهْبِطَا مِنْهَا جَمِيعًا بَعْضُكُمْ لِبَعْضٍ عَدُوٌّ فَإِمَّا يَأْتِيَنَّكُمْ مِنِّي هُدًى فَمَنِ اتَّبَعَ هُدَايَ فَلا يَضِلُّ وَلا يَشْقَى وَمَنْ أَعْرَضَ عَنْ ذِكْرِي فَإِنَّ لَهُ مَعِيشَةً ضَنْكًا وَنَحْشُرُهُ يَوْمَ الْقِيَامَةِ أَعْمَى

"Allah buyurdu: “Bir-birinizə düşmən kəsilərək hamınız buradan (yerə) enin. Məndən sizə doğru yolu göstərən rəhbər gəldiyi zaman hər kəs Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar.

Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik”.

[Ta-Ha 20 surəsi, ayələr 123-124].

## Mən İslam dinini qəbul etməkdən nə fayda əldə edirəm?

İslam dinini qəbul etməyin böyük faydaları vardır. Bunlardan bəziləri aşağıdakılardır:

- İnsanın Allahın qulu olması ilə bu dünyada uğura və şərəfə nail olması. Əks halda, o nəfsinin (havasının), şeytanın və şəhvətlərinin qulu olar.

- Axirətdə ən əzəmətli uğur olan, Cəhənnəm əzabından qurtulmaq, Cənnətə daxil olmaq, Allahın razılığını qazanmaq və Cənnətdə əbədi qalmağa nail olmaq.

- Allahın Cənnətə daxil edəcəyi insanlar, əbədi nemət içində yaşayacaq və orada nə ölüm, nə xəstəlik, nə ağrı-acı, nə qəm-qüssə, nə də qocalıq görməyəcəklər və onlar Cənnətdə, istədikləri hər şeyə sahib olacaqlar.

- Cənnətdə heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir insanın ağlına gəlməyən nemətlər vardır.

Bunun dəlillərindən biri Uca Allahın bu ayəsidir:

﴿مَنۡ عَمِلَ صَٰلِحٗا مِّن ذَكَرٍ أَوۡ أُنثَىٰ وَهُوَ مُؤۡمِنٞ فَلَنُحۡيِيَنَّهُۥ حَيَوٰةٗ طَيِّبَةٗۖ وَلَنَجۡزِيَنَّهُمۡ أَجۡرَهُم بِأَحۡسَنِ مَا كَانُواْ يَعۡمَلُونَ﴾

"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq". [Nəhl 16 surəsi, ayə 97].

## İslamı qəbul etməsəm, nə itirmiş olaram?

İnsan ən böyük elmi və biliyi - Uca Allah haqqında elmi və Onu tanımağı və həmçinin insana dünyada əmin-amanlıq və rahatlıq, axirətdə isə əbədi nemətlər bəxş edən Allaha imanı itirəcəkdir.

İnsan, Uca Allahın insanlara göndərdiyi ən əzəmətli kitabla tanış olmağı (onu oxumağı) və bu əzəmətli kitaba iman etməyi itirəcəkdir.

İnsan, əzəmətli peyğəmbərlərə iman etməyi və həmçinin Qiyamət günü Cənnətdə onlarla birgə olmağı itirəcək və Cəhənnəm odunda şeytanlarla, günahkarlarla və tağutlarla birgə olacaqdır. Bu necə də pis məskən, necə də pis qonşuluqdur.

Uca Allah buyurur:

قُلْ إِنَّ الْخَاسِرِينَ الَّذِينَ خَسِرُوا أَنْفُسَهُمْ وَأَهْلِيهِمْ يَوْمَ الْقِيَامَةِ أَلا ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ (15) لَهُمْ مِنْ فَوْقِهِمْ ظُلَلٌ مِنَ النَّارِ وَمِنْ تَحْتِهِمْ ظُلَلٌ ذَلِكَ يُخَوِّفُ اللَّهُ بِهِ عِبَادَهُ يَا عِبَادِ فَاتَّقُونِ } .

"De: “Şübhəsiz ki, ziyana uğrayanlar Qiyamət günü özlərini və ailələrini ziyana uğradanlardır. Açıq-aşkar ziyan da elə budur!

Onların üstündə oddan təbəqələr, altında da (oddan) təbəqələr olacaqdır. Allah qullarını bununla qorxudur. Ey qullarım! Məndən qorxun!".

[Zümər 39 surəsi, ayələr 15-16].

## Qərar verməyi gecikdirmə!

Dünya əbədi qalınacaq yer deyil...

Dünyada olan hər bir gözəllik yox olacaq və hər bir şəhvət sönəcək...

və sənin, etdiyin əməllərin hər birinə görə sorğu-sual olunacağın bir gün gələcək, o gün Qiyamət günüdür. Uca Allah buyurur:

{وَوُضِعَ الْكِتَابُ فَتَرَى الْمُجْرِمِينَ مُشْفِقِينَ مِمَّا فِيهِ وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَالِ هَذَا الْكِتَابِ لاَ يُغَادِرُ صَغِيرَةً وَلاَ كَبِيرَةً إِلاَّ أَحْصَاهَا وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا وَلاَ يَظْلِمُ رَبُّكَ أَحَدًا}

"(Hər kəsin) kitabı (qarşısına) qoyulacaq və sən günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!". [Kəhf 18 surəsi, ayə 49].

Uca Allah, İslamı qəbul etməyən kimsənin gedəcəyi yerin, əbədi olaraq Cəhənnəm atəşi olduğunu xəbər vermişdir.

Bu itki kiçik deyil, əksinə, çox böyükdür. Uca Allah buyurur:

{وَمَن يَبْتَغِ غَيْرَ الْإِسْلَامِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِي الْآخِرَةِ مِنَ الْخَاسِرِينَ }

"Kim İslamdan başqa bir din axtararsa, (bilsin ki,) o din ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar". [Əli İmran 3 surəsi, ayə 85].

İslam, dinlər arasında Allahın insanlardan qəbul edəcəyi yeganə dindir.

Bizi Allah yaratmışdır və Ona da dönəcəyik. Bu dünya bizim üçün bir imtahandır.

Yəqin ol: Bu həyat yuxu kimi qısadır... və heç kəs nə vaxt öləcəyini bilmir!

Bəs Qiyamət günü Rəbbin səndən: "Nə üçün haqqa tabe olmadın? Nə üçün sonuncu peyğəmbərə tabe olmadın?" – deyərək soruşanda, cavabın nə olacaq?

Qiyamət günü sən, Rəbbinə nə cavab verəcəksən? Artıq Uca Allah səni İslama küfr etmənin aqibətindən çəkindirmiş və sənə kafirlərin sonunun, əbədi Cəhənnəmdə həlak olduğunu xəbər vermişdir.

Uca Allah buyurur:

﴿وَالَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآيَاتِنَا أُولَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾ [2: 39].

"Kafir olub ayələrimizi yalan sayanlara gəlincə, onlar Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar!".

[Bəqərə 2 surəsi, ayə 39].

## Haqqı tərk edib, ata-babaları təqlid edən kimsənin heç bir üzrü yoxdur.

Uca Allah bizə bir çox insanın yaşadıqları mühitdən qorxaraq İslamı qəbul etməkdən imtina etdiklərini xəbər vermişdir.

İnsanların çoxu ata-babalarından miras aldıqları və alışdıqları inanclarını dəyişmək istəmədikləri üçün İslamdan imtina edir və varis olduqları batilə olan təəssübkeşlik və fanatik bağlılıqları da onların bir çoxuna İslamı qəbul etməyə mane olur.

Bu kəslərin heç birinin buna görə üzrü yoxdur və onlar Qiyamət günü Allah qarşısında heç bir dəlilləri olmadan dayanacaqlar.

Ateist bir kimsənin: “Mən ateist ailəsində doğulduğuma görə ateist olaraq qalacağam!” – deməsi üzür deyildir. Əksinə, o, Allahın ona bəxş etdiyi ağlı istifadə etməli, haqqı axtarmalı, göylərin və yerin əzəməti haqqında düşünməli, bu kainatın bir Yaradanı olduğunu dərk etmək üçün onu yaradanın ona verdiyi ağıl ilə fikirləşməlidir. Eləcə də, daşlara və bütlərə ibadət edən kəslərin də, ata-babalarını təqlid etdiklərinə görə heç bir üzrü yoxdur. Əksinə, o, haqqı axtarmalı və öz-özünə: "Axı məni eşitməyən, məni görməyən və mənə heç bir faydası olmayan cansız bir varlığa necə ibadət edə bilərəm?!" – deyə sual verməlidir.

Həmçinin, fitrətə və ağıla zidd olan şeylərə inanan bir nəsrani şəxs də öz-özünə: "Axı, Rəbb olan Allah, başqa insanların günahına görə günah etməyən oğlunu necə öldürə bilər?! Bu, zülümdür! Axı insanlar Rəbbin oğlunu necə çarmıxa çəkib öldürə bilərlər?! Məgər Rəbb, insanlara Öz oğlunu öldürməyə icazə vermədən, onların günahlarını bağışlamağa qadir deyilmi? Məgər Rəbb, Öz oğlunu müdafiə etməyə qadir deyilmi?" – deyə sual verməlidir.

Beləliklə, ağıllı insana haqqa tabe olmaq və batil üzərində olan ata-babalarını təqlid etməmək vacibdir.

Uca Allah buyurur:

﴿وَإِذَا قِيلَ لَهُمۡ تَعَالَوۡاْ إِلَىٰ مَآ أَنزَلَ ٱللَّهُ وَإِلَى ٱلرَّسُولِ قَالُواْ حَسۡبُنَا مَا وَجَدۡنَا عَلَيۡهِ ءَابَآءَنَآۚ أَوَلَوۡ كَانَ ءَابَآؤُهُمۡ لَا يَعۡلَمُونَ شَيۡـٔٗا وَلَا يَهۡتَدُونَ﴾

"Onlara: “Allahın nazil etdiyinə və (göndərdiyi) elçiyə tərəf gəlin”– deyildikdə: “Atalarımızın tutduğu yol bizə bəsdir”– deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə (onda) necə olsun?". [Maidə 5 surəsi, ayə 104].

## İslamı qəbul etmək istəyən, lakin yaxınlarının ona əziyyət verəcəyindən qorxan kimsə nə etməlidir?

Kim İslamı qəbul etmək istəsə, lakin ətrafındakı vəziyyətdən qorxarsa, Allah ona başqalarından asılı olmayacaq və dinini açıq şəkildə həyata keçirmək imkanı əldə edəcək xeyirli bir yol açana qədər İslamı qəbul edib gizlədə bilər.

İslamı dərhal qəbul etmək sənə vacibdir, lakin sənin üçün zərərli olacaqsa, ətrafındakı insanlara İslamı qəbul etdiyini bildirmək və ya onu açıq şəkildə elan etmək vacib deyildir.

Bil ki, əgər sən İslamı qəbul etsən, milyonlarla müsəlmanın qardaşı olacaqsan və ölkənizdəki məscid yaxud İslam mərkəzi ilə əlaqə saxlayıb, onlardan məsləhət və kömək istəyə bilərsən ki, onlar da bundan məmnun olacaqlar.

Uca Allah buyurur:

{وَمَنْ يَتَّقِ اللَّهَ يَجْعَلْ لَهُ مَخْرَجًا وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِب}

"Kim Allahdan qorxarsa, Allah ona (hər sıxıntıdan) bir çıxış yolu açar və ona gözləmədiyi yerdən ruzi bəxş edər".

[Talaq 65 surəsi, ayələr 2-3].

## Hörmətli oxucu!

Məgər bütün nemətlərini sənə verən, ananın bətnində olarkən səni qida ilə təmin edən və hal-hazırda nəfəs aldığın havanı sənə bəxş edən Xaliq olan Allahı razı salmaq, insanların səndən razı olmasından daha önəmli deyilmi?

Məgər dünya və axirət uğurlarına nail olmaq üçün - həyatın bütün keçici ləzzətlərini qurban verməyə dəyməzmi? Allaha and olsun ki, dəyər!

Keçmişinin, səni yalnış yolundan dönməyə və doğru olanı etməyə mane olmasına imkan vermə.

Bu gün həqiqi mömin ol! Şeytanın səni haqq yolundan döndərməsinə imkan vermə!

Uca Allah buyurur:

{يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءَكُمْ بُرْهَانٌ مِنْ رَبِّكُمْ وَأَنزلْنَا إِلَيْكُمْ نُورًا مُبِينًا (174) فَأَمَّا
الَّذِينَ آمَنُوا بِاللَّهِ وَاعْتَصَمُوا بِهِ فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ
صِرَاطًا مُسْتَقِيمًا (175) }

"Ey insanlar! Rəbbinizdən sizə bir dəlil gəldi və Biz sizə aydın bir nur (Quran) nazil etdik.

Allaha iman gətirən və Ondan möhkəm yapışan şəxslərə gəlincə, (Allah) onları Öz rəhmətinə və lütfünə qovuşduracaq və onları Özünə tərəf (aparan) düz yola yönəldəcəkdir".

[Nisa 4 surəsi, ayələr 174-175].

## Sən həyatında ən böyük qərarı verməyə hazırsanmı?

Əgər yuxarıda qeyd olunanların hamısı sənə məntiqli görsənirsə və qəlbində həqiqəti etiraf etmisənsə, elə isə müsəlman olmaq üçün ilk addımı atmalısan. Sənə həyatındakı ən doğru qərarı verməyə və necə müsəlman olmağın yolunu göstərməyə kömək etməyimi istəyirsənmi?

Günahlarının səni, İslamı qəbul etməyə mane olmasına imkan vermə. Çünki Uca Allah Quranda bizə, İslamı qəbul edib, Rəbbinə tövbə edən insanın bütün günahlarını bağışlayacağını xəbər vermişdir. Hətta İslamı qəbul etdikdən sonra belə, bəzi günahlar işləməyin təbiidir, çünki biz bəşərik, məsum (günahsız) mələklər deyilik. Lakin bizdən tələb olunan, Allahdan bağışlanma diləməyimiz və Ona tövbə etməyimizdir. Əgər Allah səndə haqqı qəbul etməyə tələsdiyini və İslamı qəbul edib şahadət kəlmələrini söylədiyini görsə, O, sənə digər günahları tərk etməyə kömək edəcəkdir. Kim Allaha tərəf yönələrsə və haqqa tabe olarsa, Allah onu daha çox xeyirə müvəffəq edər. Elə isə indi, İslamı qəbul etməkdə tərəddüd etmə.

Bunun dəlillərindən biri Uca Allahın bu ayəsidir:

﴿قُل لِّلَّذِينَ كَفَرُوٓاْ إِن يَنتَهُواْ يُغۡفَرۡ لَهُم مَّا قَدۡ سَلَفَ﴾

"Kafir olanlara de ki, əgər (küfrə) son qoysalar, onların keçmiş günahları bağışlanacaq". [Ənfal 8 surəsi, ayə 38].

## Müsəlman olmaq üçün nə etməliyəm?

İslama daxil olmaq asan bir işdir, bunun üçün müəyyən bir ayinin icrasına və ya rəsmi mərasimə yaxud da kiminsə iştirak etməsinə ehtiyac yoxdur. Sadəcə olaraq insanın iki şəhadət kəlməsini, mənasını bilərək və ona iman edərək: (أشهد أن لا إله إلا الله

وأشهد أن محمدًا رسول الله):

[Əşhədu ən lə iləhə illə-Llahu və əşhədu ənnə Muhəmmədən rasulu-Llah]:

(Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Və şəhadət edirəm ki, Muhammәd ﷺ - Allahın rəsuludur) tələffüz etməsi lazımdır. Əgər bu iki şəhadət kəlməsini ərəb dilində deyə bilsən, gözəl olar. Əgər ərəb dilində söyləmək sənə çətin olsa, o zaman ana dilində deməyin kifayət edər və bununla da sən müsəlman olursan. Bundan sonra isə üzərinə düşən dünyada sənin səadətinin, axirətdə isə nicatının qaynağı olan Dinini öyrənməkdir.

İslam haqqında daha çox məlumat əldə etmək üçün veb-sayta daxil olmağını tövsiyə edirəm:

İslama necə əməl etməyi öyrənmək üçün veb-sayta daxil olmağını tövsiyə edirik:

# Mündəricat

Məni kim və nə üçün yaratdı? ........ 2
Hər bir şey Yaradanın varlığına dəlalət edir. ........ 2
Pak və Uca olan Allah ........ 3
Pak və Uca olan Rəbbin sifətləri ........ 4
İbadət olunan Rəbb kamil sifətlər ilə vəsf olunmalıdır. ........ 5
Yaradanın bizi vəhysiz tərk etməsi ağlabatandırmı? ........ 7
Qurani Kərim ........ 9
Nə üçün Rəsullar çox olub? ........ 9
Bir şəxs, göndərilən bütün rəsullara iman etmədikcə, mömin sayılmaz. ........ 11
İslam nədir? ........ 12
Müsəlmanlar İsa, aleyhi-ssələm, haqqında nə etiqad edir? ........ 13
Müsəlman olmaq üçüm mən nə etməliyəm? ........ 19
İslam səadət (xoşbəxtlik) yoludur. ........ 20
Mən İslam dinini qəbul etməkdən nə fayda əldə edirəm? ........ 21
İslamı qəbul etməsəm, nə itirmiş olaram? ........ 22
Qərar verməyi gecikdirmə! ........ 22
Haqqı tərk edib, ata-babaları təqlid edən kimsənin heç bir üzrü yoxdur. ........ 24
İslamı qəbul etmək istəyən, lakin yaxınlarının ona əziyyət verəcəyindən qorxan kimsə nə etməlidir? ........ 26
Hörmətli oxucu! ........ 27
Sən həyatında ən böyük qərarı verməyə hazırsanmı? ........ 28
Müsəlman olmaq üçün nə etməliyəm? ........ 29

az361v1.0 - 04/09/2026